# Azərbaycanın qədim keçmişinə "canlı" səyahət

## *Gəncədə keçirilən "Tarixin canlı səhifələri" IV Gənclər Festivalında tarixi ab-hava yaşanıb*

Gənclər və İdman Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə şəhərin Yeni Qızılca ərazisində "Tarixin canlı səhifələri" IV Gənclər Festivalı keçirilib. Tarixi səhnələr və obrazlarla zəngin olan festival Azərbaycanın qədim keçmişinə "canlı" səyahət təsiri bağışlayıb.

AZƏRTAC xəbər verir ki, festivalda Azərbaycan Respublikası Prezidenti Katibliyinin rəisi, tarix elmləri doktoru Dilarə Seyidzadə, gənclər və idman nazirinin müavini İntiqam Babayev, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev, Dövlət Sərhəd Xidmətinin rəsmiləri, Milli Məclisin deputatları, gənclər və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə xüsusi meydanda təşkil olunan orta əsrlər bazarını seyr ediblər. Qonaqlar həmin dövrün ən qızğın ticarət məkanı olan bazar meydanına qala divarlarının önündə şəhər rəisinin imzaladığı şərti icazə sənədi və keşikçilərin nəzarəti altında daxil olublar.

Orta əsrlər müsəlman Şərqinin karvan ticarət yollarının üzərində yerləşən ənənəvi meydan bazarını xatırladan məkanda qonaqlara müxtəlif şərti Şərq malları, kənd təsərrüfatı məhsulları, nəfis sənətkarlıq nümunələri təklif edilib. Meydan bazarda xalq sənəti nümunələri - dəmirçilər, misgərlər, oyma ustaları tərəfindən hazırlanan əşyalar nümayiş olunub.

Tamaşaçılar bazarda Azərbaycan mətbəxinin zəngin nümunələrinə, müxtəlif şirniyyat və çörək növlərinə qonaq edilib.







Sonra xüsusi məkanda dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Leyli və Məcnun", "Xosrov və Şirin", "Sirlər xəzinəsi", "İskəndərnamə" poemalarının motivləri əsasında hazırlanan kiçik tamaşalar təqdim olunub. Nizami qəhrəmanlarının ustalıqla yaradılan obrazları tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Daha sonra tarixi rekonstruksiya formatında hazırlanmış "Tarixin canlı səhifələri" festivalı başlayıb. Festival üçün xüsusi hazırlanan kütləvi tamaşada 400 aktyor, tələbə və idmançının iştirakı ilə Azərbaycan tarixinin müxtəlif dövrləri canlandırılıb.

İlk olaraq səhnədə 816-838-ci illərdə ərəb əsarətinə qarşı mübarizə aparan, Xürrəmilər hərəkatının başçısı Babək görünüb. Tarixi sənədlər və eyniadlı filmin motivləri əsasında hazırlanan kütləvi səhnə əsərində tamaşaçılar xalq qəhrəmanı Babəkin keçdiyi döyüş yoluna nəzər salıblar. Ərəb xilafəti qoşunlarının Azərbaycana yürüşünü, Babəkin qüdrətli xilafətin nizami ordusu üzərində qazandığı qələbələri əks etdirən səhnələr peşəkar aktyorlar tərəfindən təqdim olunub.

Azərbaycan Eldənizlər-Atabəylər dövlətinin (1136-1225) şanlı qüdrətli sərkərdəsi və dövlət xadimi Məhəmməd Cahan Pəhləvanın, Qızıl Arslanın keçdikləri döyüş yolları, feodal müharibələri, Toxtamışın, Teymurun Azərbaycana yürüşləri, nəhayət, 1410-cu ildə yaranan və tezliklə Yaxın və Orta Şərqin nəhəng dövlətinə çevrilən Baharlı-Qaraqoyunlu dövləti, Qara Yusifin qalibiyyətli müharibələri, döyüş səhnələri aktyorların oyununda yaddaqalan olub. Gəncə bəylərbəyi Cavad xan Ziyadoğlunun (1786-1804) düşmənə qarşı apardığı mübarizə və digər səhnələr tamaşanı seyr edən gənclərin vətənpərvərlik hisslərini coşdurub.

Tamaşada ümummilli lider Heydər Əliyevin yorulmaz fəaliyyəti, apardığı müdrik daxili və xarici siyasət, Azərbaycanın keçdiyi inkişaf yolu, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı böyük uğurlar tarixi videogörüntülərlə iştirakçılara təqdim edilib.

İki saata yaxın davam edən festivalda xüsusi hazırlanan dekorasiyalar və əlbəyaxa döyüş səhnələri, mancanaqlar, yanğın alayı, döyüş topları, qala divarları önündə, meydanda bir-birini əvəz edən oyunlar, "Bayatı Şiraz", "Rast", "Şur" kimi simfonik muğamlar və tarixi filmlərin musiqiləri əsasında işlənən videogörüntülər hər kəsə unudulmaz anlar bəxş edib. Xüsusi işıq effektləri, peşəkar aktyorların canlandırdıqları tarixi obrazlar tamaşaçıları sanki Azərbaycanın şanlı keçmişinə qaytarıb.

Festival Azərbaycanın dövlət himninin səsləndirilməsi və atəşfəşanlıqla başa çatıb.